## PSYCHOLOGICAL LIMITATIONS OF THE ATHLETE'S PERSONALITY IN THE MANIFESTATION OF FEAR AND WAYS TO OVERCOME IT

**N.A.Mamayeva**
*Azerbaijan State Academy of Physical Education and Sport*
Department of Social Sciences

**Annotation**: In the process of personality formation, material, spiritual resources and norms of behavior objectively existing in society are subject to subjective relationships. This process covers the entire set of interactions between the individual and society, which form a particular quality in a person. Today coaches easily associate the reason for the defeat of athletes with physical and technical fitness. Theoretical and psychological training, being one of the main components of sports, are essentially very close and interconnected with each other. Most of the shortcomings are also associated with theoretical and psychological training. By expanding these areas for our athletes, we will improve their technical, tactical and physical fitness in parallel with the psychological preparation. If an athlete studies theoretically and learns practical ways to get rid of fear, he will soon be able to get rid of it.

**Keywords:** *personality, athlete, psychological preparation, psychoregulation, victory.*

## DİSKURS, NUMERATİV SÖZ VƏ NİTQ AKTI

**Ü.T. Yusubova**

*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*
Sosial elmlər kafedrası, baş müəllim
ulviya09081974@gmail.com

**Nəşr tarixi**
Qəbul edilib: 1 iyun 2020
Dərc olunub: 5 iyul 2020
© 2020 ADBTİA Bütün hüquqlar qorunur

**Annotasiya**: Məqalədə leksik və frazeoloji numerativlərin diskurs şəraitində işlənmə xüsusiyyətləri öyrənilir. Numerativlər nitq formulu kimi diskursiv funksiyaları da yerinə yetirir, adresatın fikir və reaksiyalarını doğurur. Nitq formulu kimi numerativlər, deyildiyi kimi, illokutiv gücə malikdir. «nitq formulu başlanğıc, orta və son qruplarına bölünür» Məs. poeziya dilində həmin xüsusiyyəti görmək olur. Xüsusən də, nitq aktı prosesində həmin vahidlərin əmələ gətirdiyi praqmatikfun-ksional və semantik-üslubi məqamlar müəyyənləşdirilir.

**Açar sözlər:** *diskurs, numerativ frazeoloji vahid, nitq aktı, say, numerativ komponent, praqmatik situasiya.*

**Giriş:** Diskurs sosio-mədəni komponentdir, dil formalarından mürəkkəb vahidlərlə, məna və hərəkətlə, kommunikativ hadisə və nitq aktı ilə qarşılıqlı əlaqə və münasibətdədir. Həmin münasibət praqmatik situasiyalarda yaranır. Praqmatika - numerativlərin kontekstdən asılı olan mənalarını öyrənir. Bu o deməkdir ki, praqmatika semantikanın əhatə olunmadığı mənaları tədqiq edir. Praqmatika numerativ sözlərin bildirdiyi mənaları, gerçək mübadilədə danışanın dinləyənlə nə cür işlənməsini öyrənir. Numerativlərə praqmatik baxımdan yanaşanda aşağıdakılar diqqət mərkəzinə çəkilir: a) adresantın və adresatın praqmatik xü-

susiyyəti, b) numerativin praqmatik məqsədi və nəticəsi, ç) adresantın seçiminə təsir göstərən faktorlar.

Praqmatika numerativ sözlərin işləndikləri məqamda onların ifadə etdikləri mənalardan bəhs edir. Məsələn, «bir atım çay» birləşməsində «atım» numerativi kontekstdə, birləşmə daxilində olan mənasına görə praqmatik xüsusiyyətə malikdir. Ancaq, kontekstdənkənar «atım» sözü qeyri-praqmatik əlamətə malikdir.

**Tədqiqatın metodları.** Biz inteqrasiya prinsipi ilə başlıqda yer almış 3 məsələni izah etməyə çalışacağıq: *diskurs, numerativ vahid və nitq aktı.* Bunların münasibətləri sözün nitq aktına və diskursa olan münasibəti kimidir.

Müasir dilçilik elminin inkişafı nəticəsində «mətn» anlayışının 250-dən çox definisiyası (təyini, tərifi) meydana çıxmışdır. «Linqvistik ensiklopediya»da mətn işarə vahidlərinin məna-fikir birliyinin, əlaqəsinin ardıcıl, məntiqi birliyi, əsas əlaqəlilik, bütövlük keyfiyyəti qazanan vasitə kimi göstərilir. Mətnə belə yanaşma təkcə onu konkret dil vahidi kimi yox, kommunikativ aktla real əlaqəsini, yüksək səviyyədə mücərrəd dil vahidinin xarakterik xüsusiyyətləri haqqında məlumat verə bilir. Bu cür baxış mətnin bir kəsiyi olan diskursun da nə olduğunu, onun tiplərini, həmin diskursların yaranmasında leksik-semantik sistemin və bu sistemə daxil olan numerativ sözlərin də səciyyəvi keyfiyyətlərini açıb göstərə bilir.

Diskurs dilin konkret hadisəsidir, nitq prosesində gerçəkləşir. Mətn özü də nitqdə reallaşır. «Diskurs bu, mətndir, nitqdə meydana gəlir. Mətn-bu xüsusi formalaşan, öz spesifik struktur-semantik xüsusiyyətləri mövcud olan dil vahididir. Mətn polikommunikativ və politematik vahiddir, hansı ki, özü mürəkkəb sintaktik bütöv (MSB) və müstəqil cümlələrdən ibarət olur.

Diskurs dedikdə bir-birinə bağlı olan iki və ya daha çox cümlə nəzərdə tutulur. Numerativlərin işləndiyi diskursların cümlədə ancaq əlaqələndirici rolu vardır. Məs.:

-*Bir fincan kofe* necə olar?
-Olar ki, *bir stəkan çay* verim.
-Yox, *bir fincan kofe…*(F.Güney. «Qara qan»).

Burada diskursu iki numerativ vahid- «bir fincan kofe» və «bir stəkan çay» yaratmışdır.

Diskursda təkcə leksik numerativ vahidlər deyil, numerativ frazeologizmlər də işlədilir. Diskurslarda işlənən numerativ frazeologizmlər dilin milli spesifikasını əks etdirir. Əsas, təməl komponentlər «frazeoloji model», «sifət +isim» əmələ gəlir və funksionallaşır. Konkret numeratativ komponentlərdə frazeoloji potensial görünür. [1 [247 s.]

Diskursun numerativ cümlələrində subyektin yaşı ifadə olunur [2, s.303-308] Məs.: beş yaşlı uşaq, 100 yaşlı nənə. «Azdan-çox»a doğru inkişaf bu səviyyədə özünü göstərir.

Aid olunma təkcə canlılara aid deyil, digər obyektlərə də aid ola bilir. Məs.:

100 yaşlı məktəb, min yaşlı ənənə və s.

Diskursun frazeoloji numerativ vahidlərində obrazlı semantika güclü olur: oxşar predmetlər əks olunur: iki cüt sapoq, iki damçı su, on ədəd sarımsaq və s.

- Oğluma bir dəst kostyum aldım.
- Mən də gərək alaydım (bir dəst kostyum)
- Niyə almadın (bir dəst kostyum)
- O zaman qayıdım mağazaya bir dəst kostyum alım (danışıqdan)

Nitq aktı nəzəriyyəsi illokutiv aktdan keçir. Nitq aktı freym kimi çıxış edir **[3]**

Nitq aktı yeni mənanın yaranmasını şərtləndirir. Bu prosesdə aparıcı rol oynayan dildaxili və dilxarici prosesləri sosial, tarixi, psixoloji nəzərə almadan, özünün qəbul etdiyi məntiqi sxemə əsaslanır. Bu təsnifatın əsasında numerativlə bağlanan təsəvvürün tutumu və məzmununun dəyişməsi dayanır. Digər sözlə, təsəvvürün statusundakı dəyişmə məna dəyişmələrinə impuls verir, onun səbəbi kimi çıxış edir.

Nitq aktında leksik və frazeoloji numerativlər müəyyən şəraitdə müəyyən məqsəd üçün işlənən nitq parçasıdır. Bu nitq parçasına bədii şəraitdə bədiilik yaratmaq məqsədilə isti-

fadə olunur. Xüsusən də, bədii diskurslarda numerativlərin işlənməsi:

1) səbəblilik yaratmaq üçün: Kəhər olmasın lap yabı olsun, mollaya bir at vacib idi. Çünki *dörd para kəndin* ölüsünə, dirisinə, kəbininə, siğəsinə yiyə duran təkcə o idi (Mir Cəlal)
2) məqsəd mənasını yaratmaq üçün: *...on üç yaşar pişik tükünü* yandırıb, külünü göyə sovurdu (Mir Cəlal)
3) Digər funksiyalarda işlənir: Köhnə süpürgə çöpünü *qırx parça* doğrayıb Qumrunun evinə yeritdi (Mir Cəlal)
4) Numerativlər mətn quruculuğunda, diskurs yaratmada fəal iştirak edir: - Bu itin ağzına bir şey atmaq lazımdır. Yoxsa bizi buraxmayacaq! Mənim yəqinimdir, buraxmayacaq! Qədir durub gəzindi. Saymazyana, *bir çırıq onluq* çıxartdı, hərifə uzatdı. Qaradovoy əsnədi, böyrünü pula tərəf əydi. Qədir, onluğu onun cibinə saldı. O papiros bükmək bəhanəsi ilə cibini yoxladı, bu dəfə başqa adamları geri itələdi, onluq əlinə dəydi, rəncbərləri buraxdı (Mir Cəlal)

Bu mətndə «bir şey», bir çırıq onluq, pul, onluq» leksik vahidləri mətni formalaşdırmışdır.

Qeyd edək ki, frazeoloji vahidlər dilin yüksək məlumatverici vahididir. Numerativ frazeoloji vahidlərlə həqiqi və məcazi konnotasiyalar ifadə olunur. Məs.: bir parça saflıq (bir parça təmizlik, bir parça dünya və s.)

Yağışlı, buludlu payız səhəri
*Bir fincan çay* süzüb qoyam qarşıma.
Mən kənddən şəhərə *bir parça saflıq*
Duruluq, təravət, yaz gətirmişəm.

Şeir başlığı: *Bir qədəh qəm»*

*Bir qədəh qəm içmişəm*
*Sərxoş olub qalmışam.*
Sevinclər ötəri, qəmlər əbədi,
Qəmlər bir qədəhdə yuyulan deyil

İki nəfər elçi gəlir (S.Vurğun)

Beş çuval arpa: Nə çuval dibində bir arpa vardır, Nə də təknəmizdə quru bir çörək... (S.Vurğun)

Müəllif diskursunda: …bir loxma çörək üçün üz tutdum şəhərə (Əli İldırımoğlu); Çörək satanlar əllərində beş manatlıq, on manatlıq, on beş manatlıq dəstana qışqıra-qışqıra, - mənimki yaxşıdı! (Əli İldırımoğlu); Olan-qalan pulumu verib on manatlıq dəstənanın birini aldım (Əli İldırımoğlu); Beş manatlıq kasaların birini götürüb özümü aralıdakı qəzet köşkünün arxasındakı xəstəzanaya verdim (Əli İldırımoğlu); -Zəhirmara qalsın o bir kasa qatıq (Əli İldırımoğlu)

Bu diskurslarda bir loxma çörək, beş manatlıq, on manatlıq, on beş manatlıq dəstana, beş manatlıq kasa, bir kasa qatıq numerativləri həqiqi konnatasiyaları ifadə etmişdir.

Bu cür müəyyən situasiyalarda frazeoloji səviyyədə numerativ cümlələr formalaşır və nitq aktına çevrilir, funksionallaşır. [4, s.108-111].

Belə cümlələri numerativ cümlələr saymaq olar. Məs.: Mənim 25 nəfər tələbə ilə söhbətim tutdu. O, iki nəfər adamla bir yerdədir.

Bu cümlələr kəmiyyət semantikasını ifadə edir. Kəmiyyət semantikası numerativ cümlələrdə 3 qrupda ifadə olunur:

1) kəmiyyətin müəyyənləşməsi ilə ifadə olunanlar, «topluluq gücü»;
2) qeyri-müəyyən kəmiyyətlə ifadə, «topluluq gücü»;
3) təxmini kəmiyyətlə ifadə olunanlar [5, s.6-9 [292 s.]

Numerativ cümlələr Azərbaycan dilində şəxsli və şəxssiz konstruksiyalardan ibarətdir. O, qürbət ölkələrdə düz *iyirmi altı il ömür* yaşadı (Nağıllardan); Yüzlərlə insan meydanlara axışırdı. Qırx dənə xilasedici evlərin damına çıxmışdı.

Numerativlər diskursda və nitq aktında funksionallaşır, kommunikativ-praqmatik situasiyadan asılı vəziyyətə düşür.

Numerativ sabit ifadələr *nitq formuludur*. Bu formalar assertiv nitq aktıdır. Bütün direktiv intensiyalar impisit formalar yaradır.

Örnəklərdən də göründüyü kimi, şair və yazıçılar numerativ frazeoloji vahidlərdən məqsədli şəkildə aktiv və məhsuldar istifadə ediblər.

1) Qəhrəmanın təsdiq və inkar obrazını yaratmaq üçün;
2) Qəhrəmanın daxili həyəcanını, sarsıntılarını, gərginliyini ötürmək, əks etdirmək üçün;
3) Qəhrəman haqqında hökm və qərar vermək üçün;
4) Mətnin obrazlılığını yüksəltmək üçün;
5) Üslubi effekt yaratmaq üçün;
6) Replika və dialoji diskurslarda numerativ sabit ifadələr eyni zamanda intensiyanı-xəbərdaretmə (on baş malı aparmaq qadağandır); qarşısını almaq (baş tutan deyil! Bu itin ağzına bir qəpik pul da atmaq lazım deyil! İkiyə bölünmüş dünya.

Qeyri-müəyyən say «dənə» numerativi ilə yanaşı gəlir, ellipsis müşahidə olunur: «beş-on dənə». Buraxılmış üzv dialoji mətnin əvvəlində adı çəkilir:

-Niyə duruxdun?

-Ac da qarovul olarmı?

-Niyə ac olursan? Çayda başına daş qəhət oldu? Bu kəndləri görmürsən, o tüfəngi niyə götürmüsən?

- O xadimi çağırdı:

- Get, Abbasgildən bir az **çörək** al! Deynən naçalnik istəyir, çox versin, **beş-on dənə!** (Mir Cəlal. Dirilən adam)

**Nəticə**. Frazeoloji numerativlərin bədii diskursda rolu böyükdür. Numerativlər həm mətndə, həm də diskursda işlədilir. Numerativlər kommunikativ strategiyanın elementidir. Müxtəlif diskurslarda praqmatik funksiya həmin vahidlər vasitəsilə də gerçəkləşə bilir. Numerativlər verbal vahid kimi diskurslarda işlənir. Kəmiyyət numerativləri müəllifin aktuallaşan intensiyasının (niyyət və məqsədinin) nüvəsini təşkil edir, bununla da mühüm funksiyalar yerinə yetirilir. Məlum olduğu kimi, say mətndə presizion informasiyanı aktuallaşdırır. Dəqiq kəmiyyət görünür. Məs.:

V.Teliya «frazeologiya nədir» sualına belə cavab verir: «diskursların bəzəyi» [6, s.84]

Diskursları numerativ frazeoloji vahidlər də bəzəyir, yəni bu vahidlər mətnə, diskursa «can verir».

A.Supurun yazır ki, frazeoloji vahidlərin tərkibində numerativlər və saylar mühüm funksional-kommunikativ vəzifələri yerinə yetirir. Bu strukturu «nəhəng ifadə mexanizmi kimi» təsəvvür etmək lazım gəlir [7, s.79-85].

Bədii mətn mühitində numerativ frazeoloji vahidlərə daha geniş yer ayrılır. Məlumdur ki, frazeoloji vahidlər müstəqil dil vahidləridir. Bu vahidlər müxtəlif aspektlərdə tədqiqat obyektinə çevrilmişdir. Buna baxmayaraq frazeologizmlərin numerativlərlə əlaqədar tərəfləri az öyrənilmişdir. Buna aid olan tədqiqatlarda göstərilir ki, numekrativ frazeologizmlər o qəbildən olan frazeologizmlərdir ki, onların tərkibində say olsun. Numerativ frazeologizmlər bədii diskursda funksitonalaşır.

Bu haqda aparılmış tədqiqatların nəticələri göstərir ki, rus dilin frazeoloji lüğətlərində 247 numerativ frazeologizmi, ispan dilində 195, gürcü dilində 238 numerativ frazeologizmlər mövcuddur [8, s. 102-106]

Bu qədər numerativ frazeologizmlərdən şair və yazıçılar ayrı-ayrı personajların nitqində, diskurslarda istifadə edirlər. Bu yolla ümumxalq dilinin frazeoloji fondunu zənginləşdirirlər.

Nağıllarda «yeddi başlı əjdaha, 40 günlük yol azuqəsi, 3 təbəqəli cavab, 3 abırlı söz» bu deyilən fikirlərin düzgünlüyünü təsdiq edə bilər.

Numerativ və frazeoloji nümerativlər bədii diskurslarda personaj nitqinin ifadəliliyini artıran üslubi vasitə kimi iştirak edir: *Bir addım kənara çəkilmərəm.*

100 il də dolanıb keçsə o vaxtdan,
Unutmaz aləmdə əhli-hal məni
(S.Vurğun)

Tutaq ki, yeddi göy, yeddi yeri sən
Yeddi min il qalıb, bildin əzbərdən.
Axıra çatsa da bu yeddi min il,
Dünyanın axırı görünən deyil
(Nizami Gəncəvi)

Nəticə olaraq göstərə bilərik ki, numerativlər üçün bir qədər səciyyəvi olan cəhət intensiya, arzu, niyyət, məqsəddir. Bu məqsəd

müxtəlif illokutiv gücü yaradır. Nitq aktı bu hesaba güclənir. Bu söz və ifadələr yeni tipli kommunikativ situasiyalarda şərh olunur və informasiya kimi ötürülür. **Məs.:** «vaqon» (beş vaqon pambıq». Vaqon pambıqla yüklənmişdir.

Beləliklə, numerativlər nitq formulu kimi diskursiv funksiyaları da yerinə yetirir, adresatın fikir və reaksiyalarını doğurur. Nitq formulu kimi numerativlər, deyildiyi kimi, illokutiv gücə malikdir. «nitq formulu başlanğıc, orta və son qruplarına bölünür» [9, s.10] Məs.: poeziya dilində həmin xüsusiyyəti görmək olur.

### Ədəbiyyat


1. **Шакиров А.С.** *Семантико-типологический анализ нумеративных фразеологических единиц в разносистемных языках.* Диссертация… кандидата филолргический наук, Самарканд, 1985.
2. **Шаповалова О.И.** *Нумеративные предложенияч, выражжающие возраст субъекта.* Актуальные проблемы современного языкознания и методики преподания языка: сборник материалов Всероссийской конференции, посвященной 115-летию со дня рождения профессора И.А.Фигуровского. Елей, 2014.
3. **Красина Е.А.** *Дискурс, высказывние и речевой акт.* Наука, М., 2008
4. **Копров В.Ю., Шаповалова О.И.** *Ситуативно-структурный подаспект нумеративных предложений в русском и Английском языках.* Вестник БГУ, Серия: Лингвистика и межкультурная коммуникация, 2016, № 2
5. **Чеснокова Л.Д.** *Имя числительное в современном русском языке.* Семантика. Грамматика. Функции. Ростов-на Дон: Гефест, 1997.
6. **Телия В.Н.** *Что такое фразеология.* М.: Наука, 1966.
7. **Супурун А.Е.** *О фразеологических единицах с числительными.* Ташкент, 1965
8. **Заалишвили Н.А.** *Роль нумеративных фразеологизмов в художественном дискурсе на материале русского, испанского и грузинского языков.* http:\\ввс-жонференже.жом/, 2 (9), Вол. 6, Февруарй 2018
9. **Kazımov İ.B.** *Nitq etiketləri-universal dil hadisəsi kimi. Azərbaycan dilində nitq etiketlərim.* Bakı, «Orxan» NRŞMMS, 2016.


## ДИСКУРС, НУМЕРАТИВЫ И РЕЧЕВОЙ АКТ

**У.Т. Юсубова**

*Азербайджанская Государственная Академия Физической Культуры и Спорта*
Кафедра «Социальных наук», старший преподаватель

**Аннотация:** В статье изучаются особенности употребления в условиях дискурса лексических и фразеологических нумеративов. Нумеративы, как формула речи также выполняют дискурсивные функции, порождают мнения и реакции адресата. Нумеративы, как формула речи, обладают иллокутивной силой – «формула речи делится на начальную, среднюю и конечную группу». Например, в языке поэзии можно увидеть эти особенности. В частности, установлены прагматически-функциональные и семантико-стилистические моменты, созданные данными единицами в процессе речевого акта.

**Ключевые слова:** *дискурс, нумеративная фразеологическая единица, речевой акт, количество, нумеративный компонент, прагматическая ситуация.*

# DİSCOURSE, NUMERATİVES AND SPEECH ACT

**U.T. Yusubova**

*Azerbaijan State Academy of Physical Education and Sport*
Department of Social Sciences Department, head teacher

**Annotation:** The article examines the peculiarities of using lexical and phraseological numeratives in the context of discourse. Numeratives as a formula of speech also performs the functions of discourse, as well as generate opinions and reactions of the addressee. Numeratives as a fomula of speech has illocutionary force i.e. "the formula of speech is divided into initial, middle, and final groups". For example we can see these peculiarities in the language of poetry. In particular it was defined pragmatic and functional as well as semantic and stylistic points, created by these units in the process of speech act.

**Keywords**: *discourse, numerative phraseological unit, speech act, number, numerative component, pragmatic situation.*

# İNGİLİS DİLİNİN ÖYRƏNİLMƏSİNDƏ DƏSTƏKLƏYİCİ MÜHİTİN YARADILMASI

**Z.Əkbərova**

*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*
Sosial elmlər kafedrası, müəllim
zahida.akbarova@sport.edu.az

**Nəşr tarixi**
Qəbul edilib: 1 iyun 2020
Dərc olunub: 5 iyul 2020
© 2020 ADBTİA Bütün hüquqlar qorunur

**Annotasiya**: Dünyada tələbələrin 40 faizindən çoxu ingilis dili öyrənənlərdir və bu say artmaqdadır. Bu tələbələrin ingilis dilli həmyaşıdlarından fərqli olaraq, xüsusi təhsilə ehtiyacları var. Bu ehtiyaclar və bunların aradan qaldırılması üçün ən yaxşı təcrübələr haqqında məlumat əldə etmək üçün bir sıra araşdırmalar aparmaq lazımdır. Bu məqalədə qlobal xarakter daşıyan ingilis dilinin öyrənilməsi zamanı dəstəkləyici mühitin yaradılması zamanı qarşıya çıxan problemlər, ümumiyyətlə, bu dilin mənimsənilməsində əsas mühitin yaradılması səbəbləri araşdırılmışdır. İnsan fəaliyyətinin reallaşdığı bütün sahələrdə ingilis dilinə olan tələbat hər ötən gün daha da artmaqdadır. Nəticədə, öz fəaliyyət sahəsində daha böyük məqsədləri hədəfləyən insanların əksəriyyəti bu dili öyrənməyə çalışır. İngilis dilini öyrənmə mərhələsində dəstəkləyici mühitin yaradılması, dili daha rahat qavramağa, sərbəst öyrənməyə və danışmağa sövq edir. Məqalədə bütün bu məsələlər müfəssəl şəkildə şərh edilmiş, habelə göstərilən mərhələlər və problemlərin hər biri öz həllini tapmışdır.

**Açar sözlər**: *dəstəkləyici mühit, dil bacarığı, ünsiyyət, maneə, mədəni bacarıqlar.*

**Giriş.** Mövcud tədqiqat ətraf mühit amillərinin İngilis dili öyrənənlərin fəaliyyətinə təsirini araşdırmaq üçün aparılmışdır. Bunun üçün dilin öyrənilməsi ilə tədris imkanları arasında əlaqənin qurulması üçün araşdırma aparıldı. Əsasən ətraf mühitin insana müsbət və ya mənfi təsir göstərdiyi müşahidə olunur. Tədris binası, sinif otaqları, tələbələrin sayına görə müəllimlərin olması və tədris və öyrənmə üçün tələb olunan digər əsas tələblər tələbələrin fəaliyyətinə birbaşa təsir göstərir. Tədqiqat, eyni zamanda İngilis dilini öyrənmə mexanizmləri və tədris prosedurları haqqında da məlumat verir. Dil öyrənən zaman dəstəkləyici mühitin yaradılması, hərtərəfli yenidən qurulma və bunun üçün lazımi işlərin həyata keçirilməsinə